Respublika .- 2025.- 9 avqust(№165).- S.11.



# Dağlar gözəli, dünya incisi



***Zaman və hadisələr sürətlə dəyişir. İnformasiya bolluğu bəzən adamı çaş-baş salır. Yeni dünya nizamında baş verən dəyişikliklər fonunda ölkələrin tarixi keçmişi ortaya çıxır, bəzi mətləblərə aydınlıq gətirilir. Bir sözlə, dünya çalxalandıqca "yağı-yağ, ayranı-ayran" olur. Belə bir qarışıq zamanda ölkəmiz haqqında səsləndirilən xoş fikirlər, qəbul edilən müxtəlif qərarlar insana qürur yaşadır. Parisdə UNESCO-nun Baş Qərargahında Dünya İrsi Komitəsinin 47-ci sessiyasında "Qədim Qəbələ şəhəri"nin bu təşkilatın Dünya İrsinin İlkin Siyahısına daxil edilməsilə bağlı qərar da Azərbaycanın qədim mədəniyyətə malik bir ölkə olduğunu bir daha təsdiqlədi...***

Qədim Qəbələ. Miladdan əvvəl IV əsrdən başlayaraq ölkənin iqtisadi, siyasi və mədəni həyatında mühüm rol oynayan bu şəhər Albaniyanın ilk paytaxtı olub. Təqribən 2500 il yaşı və 9 əsr ərzində Qafqaz Albaniyasının paytaxtı olan qədim Qəbələ dünyanın Babil, Troya, Pompey kimi qədim və məşhur şəhərlərilə müqayisə edilir. Mühüm siyasi-iqtisadi və ticarət mərkəzlərindən biri olub. Antik dövrə aid böyük binaların qalıqları, qala divarları, maddi-mədəniyyət abidələri Qəbələnin qədim şəhər olduğundan xəbər verir.

Eramızdan əvvəl IV əsrin sonu, III əsrin əvvəllərində şəhər kimi formalaşan Qəbələ eramızın XVIII əsrinin ortalarına qədər mövcud olub. Həmin dövrdən öz əvvəlki əzəmətini, əhəmiyyətini itirməyə başlayıb və beləliklə, əhali tədricən buradan köçüb. Alban hökmdarlarının baş iqamətgahının yerləşdiyi Qəbələ eramızdan əvvəl 60-cı illərdə Roma qoşunlarının hücumlarına tab gətirib, düşmən onu işğal edə bilməyib. Bu şəhərin xarabalıqları hazırda rayon mərkəzindən 15-20 km məsafədə, Qaraçay və Covurlu çaylarının arasındakı ərazidə, Çuxur Qəbələ kəndində yerləşir.

Arxeoloji qazıntılar göstərir ki, antik dövrdə, orta əsrlərdə də çox mühüm sənətkarlıq mərkəzi kimi qalan Qəbələdə daşişləmə, metalişləmə, sümükişləmə, ağacişləmə, dulusçuluq, şüşə istehsalı, zərgərlik, boyaqçılıq, dabbaqlıq, toxuculuq geniş inkişaf edib. Şəhər regionun mərkəzi kimi həm də ətraf yaşayış məntəqələrinin əhalisinin sənətkarlıq məhsullarına olan ehtiyaclarını ödəyirmiş. Tədqiqatlar zamanı əldə olunmuş sikkələr, fayans, farfor və seladon qab nümunələri Qəbələnin XVI-XVII əsrlərdə dünyanın bir sıra ölkələri, o cümlədən İran və Çinlə intensiv əlaqələrindən xəbər verir. Deməli, paytaxtın Bərdəyə köçürülməsindən sonra da Qəbələ ölkənin əsas şəhəri funksiyasını itirməyib.

Qəbələ dağlar qoynunda qərar tutub. Şahdağ zirvəsi rayonun şimal sərhədində yerləşir, Əmili, Gədik, Qızlar qalası və Əmirvan kimi dağlar rayonu cənub tərəfdən əhatə edir. Torpağı, bitki örtüyü özünəməxsusdur. Dağ-meşə qurşağı görənləri heyran edir. Buradakı müxtəlif ağac cinslərinin təbii rəngarəngliyi isə bir möcüzədir. Yovşanı, yovşanlı-şoranotulu yarımsəhra bitkiləri, palıd, fıstıq, vələs, yalanqoz, qızılağac, söyüd, qovaq ağacları bu meşələrə başqa bir gözəllik qatır. Azərbaycan təbiətinin yeganə təbii abidəsi sayılan Həmzəli kəndindəki Qaraçöhrə ağaclarının yaşı 250-300 ildən çoxdur. Bu ağacların yaratdığı sıx meşələr təkcə ölkəmizin deyil, eləcə də onun hüdudlarından çox-çox uzaqlarda yaşayan alim və tədqiqatçıların da diqqətini cəlb edir. Qəbələ meşələrində bitən şabalıd, qoz, fındıq, armud, heyva, əzgil, zoğal, alça, yemişan, çaytikanı, sumaq, yabanı moruq, alma dərdlərin dərmanı hesab edilir. Çəmənlərində, düzənlərində yayılmış kəkotu, qaraqınıq, sarıçöp, baldırqan, qızılgülün ətri insanı valeh edir, həmçinin, arıçılığın inkişafına şərait yaradır. Dağlarda, meşələrdə məskən salan maral, dağ keçi, cüyür, qırqovul, kəklik, turac, çöl göyərçini, qartal, qarğa, hacıleylək, qızıl qaz, ördək bu torpağın əbədi sakinləridir.

Bu yerlərin ecazkar təbiətinin, nəsli kəsilməkdə və ya nadir olan bioloji canlıların qorunması məqsədilə Qəbələdə çoxlu sayda qoruq və yasaqlıqlar yaradılıb. Belə ki, 1958-ci ildə Türyançay Dövlət Təbiət Qoruğu, 1993-cü ildə Qəbələ Dövlət Təbiət Yasaqlığı fəaliyyətə başlayıb. Şahdağ Milli Parkının bir hissəsi də bu rayonun ərazisinə düşür.

Qəbələ bu gün turizm mərkəzinə çevrilib. Son illər rayonun bir sıra beynəlxalq mədəni-kütləvi tədbirlərə ev sahibliyi etməsi buraya gələnlərin sayını xeyli artırmışdır. Hər ilin yayında keçirilən Qəbələ Beynəlxalq Musiqi Festivalında dünyanın 20-yə yaxın ölkəsindən dünyaşöhrətli musiqiçilər iştirak edir. Bu musiqi bayramında səsləndirilən klassik musiqiləri canlı dinləmək üçün yüzlərlə yerli və xarici musiqi həvəskarı bu gözəl məkanın qonağı olur, buradakı turizm obyektlərində dincəlməklə yanaşı, əsrarəngiz təbiəti seyr edir, tarixi abidələrlə tanış olurlar.

Rayonun ən məşhur tarixi-mədəni abidəsi eramızın I əsrinə aid yazılı mənbələrdə (Piliniy və b.) adı çəkilən qədim Qəbələ şəhəridir. Əmili kəndində IV-VIII əsrlərə aid alban məbədi, Bum kəndində XIX əsrə aid məscid, Bayramkoxa kəndində IX-XIV əsrlərə aid Ustacan qalası, Səfili kəndindəki XVII əsrə aid məqbərə, Həmzəli kəndindəki XVI əsrə aid Şıxbaba piri, Komrad dağının zirvəsindəki Komrad piri, Nic kəndindəki Hacı Qərib məscidi və XIX əsrdə yaşamış Bolu bəyin evi, Həzrə kəndində XV əsrə aid Şeyx Bədrəddin və Şeyx Mansur məqbərələri buraya gələnlərin diqqətini cəlb edir. Qəbələ qədim insan məskənidir. Nic kəndinin yaxınlığındakı Yalovlu dağda eramızdan əvvəl III-I əsrlərdə insanların yaşaması arxeoloji qazıntılarlar təsdiq edilib.

Şəhərlərarası əlaqələrin gücləndirilməsi məqsədilə Qəbələ rayonu rəsmi olaraq 5 şəhərlə - Rusiyanın Kislovodsk, Sisert, Moldovanın Komrat, İsrailin Yokneam, Koreyanın Qyonqçu şəhərləri ilə qardaşlaşıb. Bu yaxınlarda isə Özbəkistanın Nəvai şəhərilə qardaşlaşmaq barədə dövlətlərarası sənəd imzalanıb.

Beləliklə, ölkəmizin daha bir mədəniyyət abidəsi dünya irsinin ilkin siyahısına salındı, dağlar gözəli qədim Qəbələ şəhəri dünya incisi seçildi...

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**